# SƏRİŞTƏYƏ ƏSASLANAN TƏHSİLİN NƏZƏRİ ƏSASLARI VƏ MÜASİR TƏTBİQ TƏCRÜBƏLƏRİ

***Nəcəfli M.M.***
*Naxcıvan Dövlət Universiteti*
*Magistratura və Doktorantura mərkəzi*
*ORCID ID: https://orcid.org/0009-0008-9264-9689*

# THE THEORETICAL FOUNDATIONS OF COMPETENCY-BASED EDUCATION AND MODERN APPLICATION PRACTICES

***Najafli M.***
*Master's student at Nakhchivan State University, Educational Assessment and Monitoring*
*ORCID ID: https://orcid.org/0009-0008-9264-9689*

**Xülasə**

Müasir dövrdə təhsil sistemlərinin əsas məqsədlərindən biri şagirdlərin yalnız bilik əldə etməsini deyil, həmin bilikləri real həyatda tətbiq edə bilən səriştələrə yiyələnməsini təmin etməkdir. Bu baxımdan səriştəyə əsaslanan təhsil (Competency-Based Education – CBE) ənənəvi vaxt əsaslı təlim modelinə alternativ olaraq xüsusi aktuallıq qazanmışdır. Məqalədə səriştəyə əsaslanan təhsilin nəzəri əsasları, formalaşma xüsusiyyətləri və müasir tətbiq təcrübələri təhlil edilmişdir. CBE-nin əsas prinsipləri, struktur elementləri və ABŞ təhsil sistemində tətbiqinə dair nümunələr təqdim olunmuşdur. Eyni zamanda, bu yanaşmanın tətbiqi zamanı yaranan çətinliklər və perspektiv imkanlar araşdırılmışdır. Aparılan təhlil göstərir ki, səriştəyə əsaslanan təhsil şagirdyönümlü, fərdiləşdirilmiş və ədalətli təhsil mühitinin formalaşdırılmasına mühüm töhfə verir. [10]

**Abstract**

In the contemporary era, one of the primary objectives of education systems is not only to ensure that learners acquire knowledge, but also to enable them to develop competencies that allow for the effective application of this knowledge in real-life contexts. From this perspective, competency-based education (CBE) has gained particular relevance as an alternative to the traditional time-based instructional model. This article examines the theoretical foundations of competency-based education, its developmental characteristics, and modern implementation practices. The core principles and structural components of CBE are analyzed, and examples of its application within the United States education system are presented. In addition, the challenges encountered in the implementation of this approach, as well as its prospective opportunities, are explored. The analysis indicates that competency-based education makes a significant contribution to the establishment of a learner-centered, personalized, and equitable educational environment.

**Açar sözlər:** Səriştəyə əsaslanan təhsil, şagirdyönümlü təlim, fərdiləşdirilmiş öyrənmə, qiymətləndirmə, təhsil islahatları.

**Keywords:** Competency-based education, learner-centered instruction, personalized learning, assessment, educational reforms.

**Mövzunun aktuallığı:** Qloballaşma, əmək bazarının tələblərinin dəyişməsi və bilik cəmiyyətinə keçid müasir təhsil sistemləri qarşısında yeni vəzifələr qoyur. Ənənəvi təlim modelləri şagirdlərin real bacarıq və səriştələrinin inkişafını hər zaman təmin edə bilmir. Bu baxımdan səriştəyə əsaslanan təhsil yanaşması təhsildə keyfiyyətin yüksəldilməsi, fərdiləşdirilmiş öyrənmənin təşviqi və bərabər təhsil imkanlarının yaradılması baxımından xüsusi aktuallıq kəsb edir. Müasir təhsil islahatları kontekstində CBE-nin nəzəri və praktik aspektlərinin öyrənilməsi aktual elmi-pedaqoji problem kimi çıxış edir.

**Materialı və metodika**: Tədqiqatın əsas məqsədi səriştəyə əsaslanan təhsilin nəzəri əsaslarını və müasir tətbiq təcrübələrini araşdırmaq, bu yanaşmanın təhsil sistemində rolunu və əhəmiyyətini müəyyənləşdirməkdir.

Bu məqsədə nail olmaq üçün səriştəyə əsaslanan təhsilin mahiyyətinin və əsas prinsipləri təhlil edilmiş, struktur elementləri müəyyənləşdirilmiş, müasir beynəlxalq, xüsusilə ABŞ təcrübəsində səriştəyə əsaslanan təhsilin tətbiqinin araşdırılmışdır. Bunlarla yanaşı bu yanaşmanın tətbiqi zamanı yaranan çətinliklərin və perspektiv imkanların dəyərləndirilməsi həyata keçirilmişdir.

**Tədqiqatın obyekti** müasir təhsil sistemində tətbiq olunan alternativ təlim yanaşmalarıdır. **Tədqiqatın predmeti** səriştəyə əsaslanan təhsilin nəzəri əsasları, struktur elementləri və müasir tətbiq təcrübələridir. **Tədqiqatın metodları** kimi elmi ədəbiyyatın təhlili, müqayisəli analiz, normativ sənədlərin öyrənilməsi və mövcud təhsil təcrübələrinin ümumiləşdirilməsi metodlarından istifadə olunmuşdur.

**Təhlil və müzakirə:** Səriştəyə əsaslanan təhsil şagirdlərin təlim prosesində fəal iştirakını, biliklərin tətbiqini və mənimsəmənin nümayiş etdirilməsini əsas götürən bir yanaşmadır. Bu model aktiv bilik quruculuğu, fərdiləşdirilmiş öyrənmə və ustalığa əsaslanan irəliləyiş prinsiplərinə söykənir. CBE yanaşmasının formalaşması nəticəyə əsaslanan təhsil ideyaları ilə sıx bağlıdır və XX əsrin ikinci yarısından etibarən inkişaf edərək müasir qiymətləndirmə mexanizmləri və təhsil texnologiyaları ilə zənginləşmişdir. [9]

Səriştəyə əsaslanan təhsilin əsas elementləri 2019-cu ildə Aurora İnstitutu tərəfindən yenidən işlənmiş tərifə əsasən, səriştəyə əsaslanan təhsil yeddi əsas elementi əhatə edir. Bu elementlər şagirdlərin öyrənmə prosesində qərarvermə səlahiyyətinə malik olmasını, qiymətləndirmənin öyrənməni dəstəkləyən müsbət təcrübə kimi qurulmasını, fərdi ehtiyaclara uyğun vaxtında dəstəyin göstərilməsini və irəliləyişin mənimsəmə dəlillərinə əsaslanmasını nəzərdə tutur. Eyni zamanda, öyrənmədə çevik temp, müxtəlif yanaşmaların tətbiqi, bərabərliyi təmin edən strategiyaların sistemə inteqrasiyası və aydın, ölçülə bilən təlim gözləntiləri CBE-nin əsas xüsusiyyətləri kimi çıxış edir.[1]

Güclü tətbiq yalnız bu elementlərin mövcudluğu ilə məhdudlaşmır, həm də siyasət, pedaqogika, struktur və məktəb mədəniyyətinin hər bir şagirdin əsas səriştələrinin inkişafını dəstəkləyəcək şəkildə qurulmasını tələb edir. [6]

Orta Qərb Regional Təhsil Laboratoriyası (REL Midwest) səriştəyə əsaslanan təhsilin əsas xüsusiyyətlərini dörd əsas təhsil təcrübəsində ümumiləşdirmişdir. Bu təcrübələrə konkret və ölçülə bilən təlim məqsədlərinin müəyyən edilməsi, şagirdlərin bu məqsədlərə nail olduqlarını nümayiş etdirmələri üçün imkanların yaradılması, çevik temp və fərdiləşdirilmiş təlim şəraiti, eləcə də hər bir şagirdin ehtiyaclarına uyğun dəstəyin göstərilməsi daxildir. [5] [8]

Bu yanaşma məktəblərə təlim prosesini fərdiləşdirməyə, şagirdlərin mövzunu daha dərindən mənimsəməsinə və öz sürətləri ilə irəliləməsinə imkan verir. Zamana əsaslanan sistemdən ustalığa yönəlmiş sistemə keçid təhsildə bərabərliyin və iştirakın artırılmasına xidmət edir.

ABŞ-da artıq bütün ştatlar məktəblərə şagirdlərin irəliləyişini dərsdə keçirdikləri vaxta deyil, mənimsəmə səviyyəsinə əsasən müəyyən etməyə icazə verir. Milli səviyyədə bir sıra ştatlar CBE-ni dəstəkləyən siyasətləri tətbiq etmiş, bəziləri isə bu yanaşmanı pilot layihələr vasitəsilə sınaqdan keçirmişdir. Nyu-Hempşir və Men ştatları erkən dövrlərdə qanunvericilik dəyişiklikləri edərək qiymətləndirmə və kredit sistemində çevikliyi artırmışdır. Digər ştatlar isə innovativ proqramlar vasitəsilə səriştəyə əsaslanan təhsilin inkişafını təşviq etmişdir. [7]

Bu təşəbbüslərin əsas məqsədləri şagird iştirakını artırmaq, təlimi fərdiləşdirmək, əmək bazarına hazırlığı gücləndirmək və nailiyyət fərqlərini azaltmaqdan ibarət olmuşdur.

Səriştəyə əsaslanan təhsilin tətbiqi bir sıra çətinliklərlə müşayiət olunur. Əsas problemlərdən biri maraqlı tərəflər arasında kifayət qədər anlayış və dəstəyin olmaması, resurs çatışmazlığı və ənənəvi təlim modelindən imtina ilə bağlı psixoloji müqavimətdir. Tədris metodlarının, tədris dizaynının və qiymətləndirmə yanaşmalarının dəyişdirilməsi müəllim və idarəçilər üçün ciddi adaptasiya tələb edir. Bəzi tənqidçilər CBE-nin müəyyən fənlər üçün uyğun olmaya biləcəyini və yüksək riskli qiymətləndirmələrə həddindən artıq bağlılıq yarada biləcəyini qeyd edirlər. [2] [3]

Bununla belə, aparılmış tədqiqatlar, xüsusilə akademik cəhətdən geridə qalan şagirdlər üçün riyaziyyat və dil fənlərində müsbət nəticələrin müşahidə olunduğunu göstərir. [4]

**Nəticə**: Aparılan təhlil göstərir ki, səriştəyə əsaslanan təhsil şagirdyönümlü yanaşmaların gücləndirilməsi baxımından mühüm potensiala malikdir. Bu model təhsildə çeviklik, fərdiləşmə və ədalətli imkanların yaradılmasına xidmət edir. Lakin CBE-nin uğurlu tətbiqi üçün sistemli yanaşma, institusional dəstək və pedaqoji mədəniyyətin transformasiyası zəruridir. Bu baxımdan səriştəyə əsaslanan təhsil müasir təhsil islahatlarının perspektivli istiqamətlərindən biri kimi qiymətləndirilə bilər.

## Ədəbiyyat siyahısı


1. Aurora Institute. (2019). *Quality principles for competency-based education*. Aurora Institute.
2. Bloom, B. S. (1971). *Mastery learning*. New York: Holt, Rinehart and Winston.
3. Guskey, T. R. (2010). *Lessons of mastery learning*. Educational Leadership, 68(2), 52–57.
4. Patrick, S., Kennedy, K., & Powell, A. (2013). *Mean what you say: Defining and integrating personalized, blended and competency education*. Vienna, VA: International Association for K–12 Online Learning (iNACOL).
5. REL Midwest. (2018). *Competency-based education: Key practices and considerations*. Regional Educational Laboratory Midwest.
6. Sturgis, C., Patrick, S., & Pittenger, L. (2011). *It's not a matter of time: Highlights from the 2011 competency-based learning summit*. iNACOL.
7. United States Department of Education. (2017). *Reimagining the role of technology in education: 2017 National Education Technology Plan Update*. Washington, DC.
8. WestEd. (2014). *Supporting competency-based pathways*. San Francisco, CA: WestEd.
9. OECD. (2018). *The future of education and skills: Education 2030*. Paris: OECD Publishing.
10. Voogt, J., & Roblin, N. P. (2012). *A comparative analysis of international frameworks for 21st century competences*. Journal of Curriculum Studies, 44(3), 299–321.